**NAXÇIVAN MUXTAR RESPUBLİKASI**
**MƏRKƏZİ SEÇKİ KOMİSSİYASI**

**QƏRAR**
**№ SQ-04/2021-3**

**Naxçıvan şəhəri** **08 fevral 2021-ci il**

**“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi” Qaydalarının təsdiq edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında” Naxçıvan Muxtar Respublikası Qanununun 20.3-cü, 20.4-cü, 20.13-cü, 23.3-cü, 23.4-cü, 23.6-cı, 28-ci 49.6-cı və 50.9-cu maddələrinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası

**q ə r a r a a l ı r:**

**1.** “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatlığına namizədə, onun səlahiyyətli nümayəndəsinə, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə dairə seçki komissiyası tərəfindən imza vərəqələrinin verilməsi” Qaydaları təsdiq edilsin.

**2.** Qərar 24 saat ərzində Mərkəzi Seçki Komissiyasının məlumat lövhəsindən asılmaq yolu ilə dərc edilsin və dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr:** **Əjdər Əliyev**

**Katib:** **Əkrəm Hüseynzadə**